# “AZƏRBAYCAN BEYNƏLXALQ BANKI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Hər birinin nominal dəyəri 100 (bir yüz) AZN olan 50 000 (əlli min ) ədəd, faizli, sənədsiz, adlı, təmin edilməmiş istiqrazların*

## YEKUN ŞƏRTLƏRİ

## № 7

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu "Yekun Şərtlərdə" olan bütün məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı – 2026**

**BƏYANAT**

1. Bu Yekun Şərtlər Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank) tərəfindən 25.02.2026 tarixdə təsdiq edilmiş Baza Emissiya Prospektinin əlavəsidir və Baza Emissiya Prospekti ilə birgə oxunmalıdır.

2. Baza Emissiya Prospekti və onun əlavəsi olan Yekun Şərtlər qanunvericiliklə nəzərdə tutulmuş vahid məlumat resursunda (Mərkəzi Bank - Məlumatların Elektron Açıqlanması Sistemi (www.cbar.az/meas), Bakı Fond Birjası (www.bfb.az) və "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin (bundan sonra – Emitent) rəsmi internet səhifələrində (www.abb-bank.az) açıqlanır.

3. Bu Yekun Şərtlər Mərkəzi Bank tərəfindən təsdiq edilmiş Baza Emissiya Prospekti üzrə istiqrazların yeddinci buraxılışıdır.

4. Buraxılışın xülasəsi ilə bağlı tələb olunan məlumatlar Yekun Şərtlərin xülasə bölməsində qeyd olunmuşdur.

**"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri:**

**İbrahimov Abbas Məmmədəli oğlu** ________________ **29 İyun 2026-cı il**

**"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin müavini:**

**Əliyev Nəbi Etibar oğlu** ________________ **29 İyun 2026-cı il**

# MÜNDƏRİCAT

**XÜLASƏ**........................................................................................................................ 4
1. İSTİQRAZLARIN BURAXILIŞI HAQQINDA YEKUN ŞƏRTLƏR ...................................4

# 1. XÜLASƏ

**1.1** Bu sənəd Baza Emissiya Prospektinə əsasən ümumi məbləği 5,000,000 (beş milyon) AZN təşkil edən, hər birinin nominal dəyəri 100 (bir yüz) AZN olan 50,000 (əlli min) ədəd, faizli (illik 10 (on) faiz), təmin edilməmiş, sənədsiz, adlı istiqrazların yeddinci buraxılışıdır.

**1.2** İstiqrazların ilkin yerləşdirilməsi abunə yazılışı formasında kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platforması üzərindən həyata keçiriləcəkdir. Buraxılışın anderrayteri qismində "ABB-İnvest İnvestisiya Şirkəti" QSC çıxış edəcəkdir.

**1.3** İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddəti ərzində (bu buraxılış (tranş) üzrə 24 (iyirmi dörd) ay müddətində (təqvim ili üzrə günlərin sayı 360 və təqvim ayı üzrə günlərin sayı 30 olaraq nəzərə alınmaqla)) ardıcıl olaraq hər 30 (otuz) gündən bir ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü icra ediləcəkdir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçiriləcək və istiqrazların nominal dəyərini təşkil edən məbləğ sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

**1.4** Bu buraxılış üzrə istiqraz mülkiyyətçiləri İstiqrazların tədavül müddəti bitdikdə istiqrazın nominal dəyərini emitentdən almaq, Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin qanunvericilikdə məüyyən edilmiş qaydada vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək, Özünə məxsus istiqrazlar barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək, istiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq, istiqrazın nominal dəyərindən illik 10 (on) faiz həcmində gəlir əldə etmək, İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı, bağışlama və s. mülki hüquqi müqavilələr bağlamaq yolu ilə ötürmək, istiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yüklü etmək (belə yüklü etmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir) və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək hüququna malikdirlər.

**1.5** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya Prospektini və bu Yekun Şərtləri oxuduqdan sonra həyata keçirilməlidir;

**1.6** Baza Emissiya Prospektində və bu Yekun Şərtlərdə olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

# 2. İstiqrazların buraxılışı haqqında yekun şərtlər

**2.1** **İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz;

**2.2** **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri:** 50,000 (əlli min) ədəd, bir ədəd qiymətli kağızın nominal dəyəri 100 (yüz) AZN olmaqla ümumi 5,000,000(beş milyon) AZN;

**2.3** **İstiqrazların valyutası:** Azərbaycan manatı **(AZN)**

**2.4 İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:

- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazın nominal dəyərini emitentdən almaq;
- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin qanunvericilikdə müəyyən edilmiş qaydada vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Özünə məxsus istiqrazlar barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 10 (on) faiz həcmində gəlir əldə etmək;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı, bağışlama və s. mülki hüquqi müqavilələr bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yüklü etmək. Belə yüklü etmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazların əldə edilməsində fiziki şəxslər üçün üstünlük hüququ nəzərdə tutulur. Bundan başqa hər hansı məhdudiyyət nəzərdə tutulmamışdır.

**2.5 Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**2.6 İstiqrazlar üzrə ödənilməli faizlər:** illik 10 (on) faiz.

**2.7 Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunub.

**2.8 Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələrin istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

**2.9 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Emissiya edilən istiqrazlar təmin edilməmiş formada emissiya edilir.

**2.10 İstiqrazların geri satın alınmasının şərtləri:** Emitent tərəfindən tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulmamışdır.

**2.11 Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF=(N*D*G/360)/100$$

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri (100 (bir yüz) AZN);

D- İstiqrazların illik gəlirlik dərəcəsi (10 (on));
G-istiqrazların faiz ödəniş dövrünün müddəti – İstiqrazların ödəniş dövrünün müddəti hər 30 (otuz) gündən bir (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə).
Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək məbləğ 0.8333 (sıfır manat səksən üç AZN) AZN təşkil edir.
Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü icra edilir və həmin günlərə faiz hesablanmır.

2.12 **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** İnvestorları təmsil edən təşkilat mövcud deyildir.

2.13 **İstiqrazların təklif qiyməti məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:** İstiqrazların təklif qiyməti 100 (bir yüz) AZN kimi müəyyən olunub.

2.14 **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin bazarda yerləşdirilməsi Baza Emissiya Prospekti və hər bir buraxılış üzrə Yekun Şərtlər dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, istiqrazların yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000- ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində dövlət qiymətli kağızları, korporativ qiymətli kağızlar və törəmə maliyyə alətləri bazarı üzrə ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi normativ aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

2.15 **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**
**"Bakı Fond Birjası" QSC**. Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların ticarətə qəbul və listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

"Bakı Fond Birjası" QSC "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında

marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Milli Depozit Mərkəzi.** Milli Depozit Mərkəzi (MDM) Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti və digər aidiyyəti xidmətləri göstərir. Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Anderrayter.** İstiqrazların emissiyası prosesində öhdəlik götürmədən anderraytinq xidmətini "ABB-İnvest İnvestisiya Şirkəti" QSC həyata keçirəcək, investorlardan abunə yazılışı sifarişlərini qəbul edəcəkdir.

**"ABB-İnvest İnvestisiya Şirkəti" QSC**
Lisenziya nömrəsi: İŞ-05
Lisenziya verilmə tarixi: 18.09.2020
Hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67
Faktiki ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə)
VÖEN-i: 1405161661
Telefon: +99412 4930091
Elektron poçt ünvanı: office@abbinvest.az

Bu emissiyada iştirak edən MDM, BFB, Emitentin İdarə Heyətinin sədri Abbas İbrahimov, Emitentin İdarə Heyəti sədrinin müavini Nəbi Əliyev, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

2.16 **Təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** İstiqraz təklifinin səbəbi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə "ABB" ASC-nin fəaliyyətinin genişləndirilməsi, kredit portfelinin artırılması yolu ilə mənfəətin əldə edilməsidir.

2.17 **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək mümkün olmadığı təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin mənbələri və məbləği:** Hazırda təşkilatın resurs mənbələri xüsusi kapital, bank öhdəlikləri və istiqraz öhdəlikləridir.

2.18 **Əldə olunan vəsaitlərin istifadəsi, digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat**: Əldə olunan vəsaitlərin sadalanan məqsədlər üçün istifadəsi nəzərdə tutulmamışdır.

2.19 **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun

16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;

Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

**2.20 İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** illik 10 (on) faiz;

**2.21 İstiqrazların və faizlərin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 10 (on) faiz təşkil edir. Yeddinci buraxılış istiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (yeddinci buraxılışın yerləşdirilmə tarixindən etibarən 24 (iyirmi dörd) ay müddətində ildə günlərin sayı 360 ( üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürülməklə) hər 30 (otuz) gündən bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**2.22 Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

**2.23 İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** İstiqrazların emissiyası haqqında qərar (04 saylı protokoldan çıxarış) "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyəti tərəfindən 30.01.2026-cı il tarixində qəbul edilmişdir.

**2.24 Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqrazların ilkin yerləşdirilməsi abunə yazılışı formasında kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. Yekun Şərtlər qeydiyyata alındıqdan sonra abunə yazılışı 1 (bir) həftə ərzində başlanacaq və 3 təqvim həftəsi müddətində davam edəcək. Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü ərzində həyata keçiriləcəkdir. Ümumi kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır. Abunə yazılışının başlanması və bitmə tarixləri, habelə istiqrazların yerləşdirilməsi tarixləri ictimaiyyətə Emitentin (https://abb-bank.az), BFB-nin (https://www.bfb.az/az) və buraxılışın anderrayteri "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-nin (bundan sonra Anderrayter) (https://www.abbinvest.az) rəsmi saytları və ya KİV-lər vasitəsilə açıqlanacaqdır. Bütün buraxılış(lar) (tranş(lar)) üzrə şərtlər Emitentin müvafiq idarəetmə orqanının qərarı ilə müəyyən olunacaqdır.

**2.25 Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Baza Emissiya Prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Mərkəzi Banka təqdim edilir. Baza Emissiya Prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**2.26 Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid

məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

**2.27 İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:**

**2.27.1 İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlara abunə yazılışı investorlar tərəfindən sifarişin Baza Emissiya Prospektində göstərilmiş anderrayterə təqdim edilməsi yolu ilə həyata keçirilir. Abunə yazılışı üzrə sifariş investor tərəfindən imzalanmalıdır. Hüquqi şəxslər tərəfindən təqdim edilən sifarişlər həmin hüquqi şəxsin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalı və möhürlə (mövcud olduğu halda) təsdiqlənməlidir. Sifariş təqdim edilərkən investisiya şirkətinin səlahiyyətli şəxsi tərəfindən sifarişin qəbul edildiyi tarix və vaxt, qeydiyyat nömrəsi, sifarişi qəbul edən şəxsin adı və soyadı sifarişin üzərində qeyd edilir və sifariş uçota alınır. Abunə yazılışı sifarişləri uçota alınaraq, abunə yazılışı müddəti ərzində Anderrayter tərəfindən toplanır.

Bakı Fond Birjası-nda istiqrazların yerləşdirilməsindən əvvəl toplanmış abunə yazılışı sifarişləri "ABB-İnvest İnvestisiya Şirkəti" QSC tərəfindən investorlar arasında aşağıdakı qaydada bölüşdürülür:

Sifarişlər aşağıdakı məbləğ intervalları və onlara uyğun müəyyən edilmiş üstünlük səviyyələri üzrə təsnifləşdirilir.

| Sifariş məbləği | Üstünlük səviyyəsi |
|---|---|
| **1,000 AZN-dək** | 1-ci dərəcəli |
| **1,100 – 20,000 AZN** | 2-ci dərəcəli |
| **20,100 – 100,000 AZN** | 3-cü dərəcəli |
| **100,100 AZN-dən yuxarı** | 4-cü dərəcəli |

1. İstiqrazların bölgüsü ilk növbədə fiziki şəxslər, daha sonra hüquqi şəxslər üzrə aparılır.
2. Hər bir investor kateqoriyası daxilində sifarişlər müəyyən edilmiş üstünlük səviyyələrinə uyğun olaraq 1-ci dərəcəli səviyyədən başlayaraq ardıcıllıqla bölgüyə cəlb olunur.
3. Müvafiq üstünlük səviyyəsi üzrə təqdim edilmiş sifarişlərin ümumi həcmi mövcud yerləşdirmə həcminə az və ya ona bərabər olduqda, həmin səviyyə üzrə sifarişlər tam həcmdə təmin olunur.
4. Müvafiq üstünlük səviyyəsi üzrə təqdim edilmiş sifarişlərin ümumi həcmi mövcud yerləşdirmə həcmini aşdıqda, həmin səviyyə daxilində sifarişlər proporsional bölgü (pro-rata) prinsipi əsasında bölüşdürülür və növbəti üstünlük səviyyəsinə keçid edilmir.
5. Proporsional bölgü zamanı hər bir sifariş üzrə bölüşdürüləcək istiqrazların sayı, mövcud yerləşdirmə həcminin həmin səviyyə üzrə ümumi tələbə nisbəti əsasında müəyyən edilir. Hesablamalar nəticəsində yaranan kəsr hissələr aşağı yuvarlaqlaşdırılır.
6. Yuvarlaqlaşdırma nəticəsində yarana biləcək qalıq istiqrazlar sifarişlərin qəbul edilmə tarixi və vaxtı nəzərə alınmaqla, ilk təqdim edilmiş sifarişdən başlayaraq ardıcıllıqla bölüşdürülür.
7. Fiziki şəxslərin sifarişləri üzrə bölgü tamamlandıqdan sonra qalan istiqrazlar eyni qaydada hüquqi şəxslər arasında bölüşdürülür.

8. Fiziki şəxslər tərəfindən təqdim edilmiş sifarişlərin ümumi həcmi mövcud yerləşdirmə həcmini aşdıqda, bölgü yalnız fiziki şəxslər arasında bu bölmədə nəzərdə tutulmuş qaydalara uyğun olaraq həyata keçirilir və hüquqi şəxslərin sifarişləri bölgüyə cəlb edilmir.
9. Ümumi yerləşdirmə həcmi tam bölüşdürüldükdən sonra bölgü prosesi başa çatmış hesab edilir.

2.27.2 **Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** İnvestorlar abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra onların geri çağırılmasını tələb edə bilməzlər. Baza Emissiya Prospektində dəyişikliklər edildikdə həmin dəyişikliklərin açıqlanmasından əvvəl istiqrazların alınması üzrə abunə yazılışına razılaşmış investorlar qeyd olunan dəyişikliklərin açıqlandığı tarixdən 7 (yeddi) iş günü ərzində təkliflərini geri götürmək hüququna malikdirlər. Yerləşdirmə bitdikdən sonra, abunə yazılmış şəxslər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması 3 (üç) gün ərzində investorun hesabına köçürülməsi təmin ediləcəkdir.

2.27.3 **Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləğini:** Abunə yazılışı üzrə minimum və/ və ya maksimum məbləğlə bağlı məhdudiyyət yoxdur.

2.28 **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** Kütləvi təklif edilən istiqrazlar, fond birjasında hərrac vasitəsilə deyil, abunə yazılışı formasında yerləşdiriləcək.

2.29 **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir. İstiqrazın dəyəri pulla ödənilir.

İstiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "ABB" ASC-də Emitentin adına açılmış müvəqqəti cari hesaba köçürülməlidir və həmin vəsaitlər "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların ilk mülkiyyətçilərinin depo hesablarına köçürüldüyü andan dərhal sonra Emitentin bank hesabına transfer ediləcəkdir.

2.30 **İstiqrazların yerləşdirilməsinin başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və yerləşdirmənin xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Yekun şərtlər Mərkəzi Bank tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışının başlanma və bitmə tarixləri, eləcə də abunə yazılışı bitdikdən sonra 2 (iki) iş günü ərzində yerləşdirmənin başlanma tarixi Bakı Fond Birjasının (www.bfb.az), emitentin (www.abb-bank.az) və anderrayterin internet səhifəsində (www.abbinvest.az) ictimaiyyətə açıqlanacaqdır.

2.31 **İstiqrazların təklif qiyməti.** Abunə yazılışı dövründə investorlar tərəfindən sifarişlərin verilmə tarixindən və həcmindən asılı olmayaraq, istiqrazlar nominal qiyməti ilə yəni, 1 istiqraz 100 (bir yüz) AZN-ə təklif olunur.

2.32 **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergi:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi

tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**Xərclər.** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

2.33 **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:** İstiqrazların öhdəlik götürmədən yerləşdirilməsi üzrə "ABB-İnvest İnvestisiya Şirkəti" QSC anderrayter təyin edilmişdir.

Lisenziya nömrəsi: İŞ-05
Lisenziya verilmə tarixi: 18.09.2020
Hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67
Faktiki ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə)
VÖEN-i: 1405161661
Telefon: +99412 4930091
Elektron poçt ünvanı: office@abbinvest.az
Xidmət haqqı Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

2.34 **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdirləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikasının ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar iştirakçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- Dövlət qiymətli kağızları bazarı;
- Korporativ qiymətli kağızlar bazarı;

- Törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: Bakı şəhəri, C.Məmmədquluzadə küçəsi 102A, City Point Biznes Mərkəzi.

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az

Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**2.35 Market meyker(lər) barədə məlumat:** Emitent tərəfindən istiqrazların təkrar bazarda tədavülü üçün prosesə marketmeyker(lər) cəlb ediləcəkdir. Bu barədə Bakı Fond Birjasının saytında məlumat açıqlanacaqdır.

**2.36 Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Emitentin qiymətli kağızları üçün hər hansı reytinq təşkilatına müraciət edilməmişdir.